*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 179-184* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091)

Lalə Həsənova*

# BƏDİİ-SƏNƏDLİ NƏSRDƏ OBRAZ VƏ MÜƏLLİF MÖVQEYİ: FAKTDAN BƏDİİ REALLIĞA

***Xülasə***

Məqalədə bədii-sənədli ədəbiyyatın problemləri ilə bağlı diskussiyaların, monoqrafiyaların əsas mövzusu olan obraz və müəllif mövqeyinin təzahür xüsusiyyətləri araşdırılmışdır. Müəllif obrazının bədii-sənədli nəsrin janrlara görə təsnifatında əsas faktorlardan biri olduğu qeyd olunmuşdur. Avtobioqrafik əsərdə yazıçı həm əsərin baş qəhrəmanı, həm də illər öncə baş vermiş hadisələri qələmə alan müəllif olaraq iştirak etsə də, ədəbiyyatşünaslardan M.Baxtin, L.Qinzburq bədii-sənədli əsərlərdə müəlliflə obraz-təhkiyəçinin tam eyniliyini, bərabərliyini qəbul etmirlər. Problem müasir Azərbaycan bədii-sənədli nəsr nümunələri əsasında araşdırılmışdır.

Tədqiqatda bədii-sənədli əsərlərin mətn strukturu mürəkkəbləşdikcə müəllif mövqeyinin də mürəkkəbə doğru inkişaf etdiyi qeyd olunmuş, bədii və sənədli obrazın oxşar və fərqli cəhətləri, avtobioqrafik və bioqrafik nəsrdə müəllif mövqeyinin təzahür xüsusiyyətləri təhlil edilmişdir.

**Açar sözlər:** müəllif, bədii-sənədli nəsr, obraz, avtobioqrafik nəsr, müasir Azərbaycan ədəbiyyatı

## THE POSITION OF IMAGE AND AUTHOR IN FICTIONAL DOCUMENTARY PROSE: FROM FACT TO ARTISTIC INTERPRETATION

***Summary***

The article examines the problem of the author and the system of images that has become the main topic of discussion on the problems of artistic and documentary prose. It is noted that the image of the author is one of the main factors in the classification of artistic and documentary genres. In autobiographical prose, the author of the work is also a character who recalls the past after a certain time. But they are not identical. The researcher refers to the scientific works of such literary scholars as M.Bakhtin, L.Ginzburg, T.Simonova, A.Tone, and others. This problem was investigated using samples of modern Azerbaijani artistic and documentary prose.

As a result of the research, it is noted that, with the complication of the textual structure of artistic and documentary works, author's position is also changing. The article also analyzes the manifestation of the image created by the author in his autobiographical and biographical prose, examines similar and distinctive features of artistic and documentary images.

**Key words:** author, fictional documentary prose, image, autobiographical prose, Azerbaijani literature of the independence period

## ОБРАЗ И АВТОР В ХУДОЖЕСТВЕННО-ДОКУМЕНТАЛЬНОЙ ПРОЗЕ: ОТ ФАКТА К ХУДОЖЕСТВЕННОЙ ИНТЕРПРЕТАЦИИ

***Резюме***

В статье исследована проблема автора и системы образов, которая стала главной темой дискуссий, посвященных проблемам художественно-документальной прозы. Отмечается, что образ автора является одним из основных факторов при классификации художественно-документальных жанров. В автобиографической прозе автор произведения одновременно и персонаж, который вспоминает прошлое спустя определенное время. Но они не являются тождественными. Исследовательница ссылается на научные труды таких

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru. E-mail: hltlala@mail.ru

ученых-литературоведов как М.Бахтин, Л.Гинзбург, Т.Симонова, А.Тоне и др. Данная проблема исследована на примерах образцов современной азербайджанской художественно-документальной прозы. В результате исследования отмечается, что с усложнением текстовой структуры художественно-документальных произведений меняется и авторская позиция. В статье также проанализированы формы проявления образа автора в автобиографической и биографической прозе, рассмотрены сходные и отличительные особенности художественных и документальных образов.

**Ключевые слова:** автор, художественно-документальная проза, образ, автобиографическая проза, азербайджанская литература периода независимости

**Giriş.** Ötən əsrin 60-cı illərindən başlayaraq bədii-sənədli ədəbiyyatın problemləri ilə bağlı təşkil edilən diskussiyaların, yazılan monoqrafiyaların əsas mövzusu obraz və müəllif mövqeyinin təzahür xüsusiyyətləridir (Литература. Документ. Факт // Иностранная литература, 1966, №8; Жизненный материал и художественное обобщение // Вопросы литературы, 1966, №9; Явчуновский Я.И. Документальные жанры: Образ. Жанр. Структура. Саратов, 1974; Л.Гинзбург və b.).

Rus ədəbiyyatşünaslığında O.Kvitçenkonun təsnifatında müəllifin subyektiv münasibətinin minimum səviyyədə yer aldığı obyektiv-sənədli bədii nəsr və bu iki başlanğıcın eyni nisbətdə olduğu bədii-sənədli əsərlər fərqləndirilib [1, s.4-5]. Fransız tədqiqatçısı J.Jennet müəllif və təhkiyəçinin eyni olduğu, üst-üstə düşdüyü əsərləri faktual, digər əsərləri isə bədii əsərlərə aid etmişdir [2, s.418]. Göstərilən araşdırmalarla yanaşı, P.Pavlievski, L.Roşal və digər tədqiqatçılar da bədii-sənədli əsərdə müəllif və obraz mövzusu ilə bağlı müxtəlif tədqiqatlar aparıblar.

Bədii-sənədli nəsrin janrlara görə təsnifatında əsas faktorlardan olan müəllif obrazının "yaddaqalan və fərqli" [3] olması əsərin sənədli deyil, bədii əsərə aid olması üçün əsas şərt kimi qiymətləndirilir. Çünki bədii-sənədli əsərlərdə müəllif yalnız "həqiqətən baş vermişlər haqqında məlumat vermir, əksər hallarda eksplisit müəllif (mətnin bədiiliyinin göstəricisi) əsərin əsas qəhrəmanı kimi əsərdə yer alır". Bu zaman müəllifin "şəxsiyyəti, mövqeyi, hadisələrə yanaşması oxucu üçün aydın" şəkildə əks olunur. T.Simonova müasir nəsrdə bədii-sənədli əsərlərin janr modifikasiyalarının "müəllif mövqeyinin seçilmişliyi və fəal formada təzahürü ilə" [3] bağlı olduğunu bildirmişdir.

Avtobioqrafik əsərdə yazıçı həm əsərin baş qəhrəmanı, həm də illər öncə baş vermiş hadisələri qələmə alan müəllifdir. Müəllif-yazıçı bu günlə bağlı olub, ötənləri müasirlik baxımından qiymətləndirir, müəllif-personaj isə hadisələrin baş verdiyi keçmiş zamanda mövcuddur [3]. Ədəbiyyatşünaslardan M.Baxtin, L.Qinzburq bədii-sənədli əsərlərdə müəlliflə obraz-təhkiyəçinin tam eyniliyini, bərabərliyini qəbul etmir. L.Qinzburq obrazın bədii gerçəkliyə mənsub olduğunu yazır. Bioqrafik və avtobioqrafik əsərlərdə "müəllif və qəhrəman" problemini araşdıran M.M.Baxtin müəllifin "öz "mən"inə kənardan baxdıqda onu "mən kiməm" aspektində deyil, "mən özümü necə təsvir edirəm" [4] baxımından canlandırdığını yazır. Bu iki kateqoriyanın eyniləşdirilməsi ilə razılaşmayan M.Baxtin əsərdə müəllifin həyatının bədii şəkildə canlandırdığını vurğulayır: "...müəllif obrazı başqa obrazlardan fərqlidir. Lakin o da obrazdır və onu da yaradan müəllif var" [4].

Bədii təsvir predmetinə çevrilən müəllif, çox zaman gerçək xüsusiyyətini itirir. Avtobioqrafiya müəllifləri özlərini, bioqrafik nəsr yazarları isə qəhrəmanlarını həyatda olduqlarından daha yaxşı göstərməyə can atırlar.

Bu xüsusiyyət digər tədqiqatçılar tərəfindən də vurğulanır: "Bütün memuarlar bizə ikili bilik və təsəvvür dairəsi verir. Əvvəla, biz memuar müəllifi vasitəsilə onun gördüyü və haqqında yazdığı insanları və zamanı qavrayırıq. Bu bizim biliklərimizin birinci dairəsidir.

İkinci – memuar müəllifinin özü haqqında olan bilik və təsəvvürlər dairəsidir: müəllif öz gözündə necə görünür və o, insanları hansı gözlə görür" [5, s.84].

Məlumdur ki, bədii-sənədli nəsrin müxtəlif formalarında müəllif obrazı fərqli şəkildə təzahür edir. Avtobioqrafiyalarda, memuarlarda yazıçı öz həyat hekayəsini, dövrün ictimai-siyasi mənzərə-

sini yaratmağa çalışır, əsərdə həm təhkiyəçi, həm də bioqrafik qəhrəman olaraq yer alır. Müəllif-təhkiyəçi bəzən haşiyəyə çıxaraq məlumatı dəqiqləşdirə və ya məsələ ilə bağlı düşüncə, mülahizələrini bölüşə bilər. Avtobioqrafik əsərlərdə əsas mövqe müəllifə məxsusdursa, bioqrafik əsərlərdə başqa bir şəxsin həyat və yaradıcılığı canlandırılır. Müəllifin əsas funksiyası "ayrı-ayrı materialın əlaqələndirilməsi, müxtəlif materialın onun ideyasına müvafiq şəkildə montaj edilməsi və obrazlar sisteminin yaradılmasından ibarətdir" [6, s.81]. Bu məqama diqqət yetirən A.Tone də eyni fikirləri vurğulayır: "Yeni fakt ədəbiyyatın"da müəllif və şahidlərin mətninin nisbəti dəyişir. Birinci əsaslı şəkildə azdır. Müəllif mövqeyinin əsas ifadə üsulları – materialların seçimi və montajdır" [7].

Avtobioqrafik əsərlərdə zaman münasibətləri mürəkkəbdir. Yalnız ötən günlər əks edilmir, keçmiş indiki zaman perspektivindən işıqlandırılır. Hadisələrin baş verərkən doğurduğu təəssüratın, indiki zaman müstəvisindən qiymətləndirməsi, ötənləri xatırlayan yazıçının baş verənləri bu gün müstəvisindən qiymətləndirilməsi yer alır. Öz həyat hekayəsindən bəhs edən müəllif, bədii obrazını canlandırarkən bu obrazda dövrün ümumiləşdirilmiş xüsusiyyətlərini ehtiva etməyə can atır. Son illərdə avtobioqrafik nəsrdə psixoloji təsvirin zəifləməsi ilə, təhkiyənin dövrün mənzərəsinin əksində cəmlənməsi baş verir, müəllifin yaxınları, ailə üzvləri ilə birgə müasirlərinin portretləri əks olunur. Bəzən bioqrafik material avtobioqrafik materialı üstələyir.

Janr daxilində mürəkkəbləşmənin təsiri ilə müəllif mövqeyi də mürəkkəbə doğru inkişaf edir. XX əsrin birinci yarısında qələmə alınmış memuarlarda təhkiyə əsasən müəllif tərəfindən aparılır, dialoq və monoloqlara az-az rast gəlinirdisə, XXI əsrin ilk onilliyində yazılmış əsərlərdə (Əli Əmirlinin "Ağdamda nəyim qaldı?", Vidadi Babanlının "Gizlinlər", Seyran Səxavətin "Qaçhaqaç" və s.) dialoq və monoloqların verilməsi ilə statik təsvirin aradan qalxması, personajların hadisələrin inkişafında aktiv iştirakını müşahidə etmək olar.

Son dövrün "roman–rekonstruksiyalar"ında, əsasən müəlliflərin müasirləri haqqında qələmə aldıqları bioqrafik əsərlərdə onlar daha çox tədqiqatçı kimi çıxış edir, məlum stereotipləri təkzib edərək, yeni obyektiv yanaşma sərgiləməyə çalışır, şair və yaradıcı insanları sovet dövründə əhatə olduqları yalançı mifdən qurtararaq, ağrı-acılarını ifadə edən real obrazlarını təsvir edirlər (Anarın "Kərəm kimi", "Həyatım ağrıyır", Xəlil Rzanın Səməd Vurğun, Mikayıl Müşfiq, Əkrəm Cəfər haqqında kitabları və s.). Abdulla Şaiqin xatirələrində Səməd Vurğun obrazı sovet şairi stereotipinə uyğun gəlirsə, Xəlil Rzanın əsərlərində şairin faciəsi, sovet yazıçı və şairlərinin ağrısı, tərəddüdləri təsvir olunur.

Rus ədəbiyyatşünası S.Volkova XX əsr ədəbiyyatında, baş verənlərə öncədən, tam şəkildə bələd olan müəllif obrazının aradan qalxdığını qeyd edir: "Müəllif özü ilə oxucu arasındakı məsafəni qısaltmağa, onu öz düşüncə və mühakimələrinə yaxınlaşdırmağa çalışır" [8, s.28]. Müəllif mövqeyinin birbaşa ifadəsinin 1970-ci illər ədəbiyyatında yarandığını qeyd edərək, bu faktorun "əsərin bütün konstruktiv elementlərinə" və "hadisəyə mümkün baxış bucaqlarının müxtəlifliyini" ötürməyə və fərdin şüuruna xas subyektivliyi aradan qaldırmağa hesablanmış olduğunu yazır [8, s.28]. Hadisənin müxtəlif rakurslardan göstərilməsi təsvir çərçivələrinin genişləndirilməsinə səbəb olur, nəticədə baş verənlərlə bağlı müxtəlif personajların münasibəti verilir. "Özgə" şüurunun nəsr strukturunun əsasını təşkil etdiyini qeyd edən tədqiqatçı, Q.Belayanın fikirlərinə istinad edərək, bununla da təhkiyə strukturunun dəyişdiyini: müəllif mövqeyinin ifadə vasitələrinin, müəllif və personajların səs nisbətinin mürəkkəbləşdiyini qeyd edir [8, s.28].

Başqa insanların xatirələrinə istinad, sənədin estetik çalar kəsb etməsi, mənbələrə (elmi-nəzəri ədəbiyyata) müraciət mətnin strukturunun mürəkkəbləşməsinə səbəb olur. Məsələn, Anarın "Kərəm kimi" əsərində yazıçı həm hadisələrin şahidi kimi Nazim Hikmətlə şəxsi görüşlərindən, atasının onunla münasibətlərindən bəhs etmiş, eyni zamanda ədəbiyyatşünas-tədqiqatçı kimi onun yaradıcılığı, haqqında yazılanlar əsasında həyatının bir çox məqamlarına aydınlıq gətirməyə çalışmışdır. Bu zaman müəllif obrazı öndə olmasa da, əsas rol oynayır. Müəllifin subyektiv münasibəti, yəni idealı, baxışları və s. kimi xüsusiyyətlər obrazın canlandırılmasına təsirsiz ötüşmür. Müxtəlif insanların

xatirələrini qələmə alaraq, eyni mətn daxilində birləşdirən yazıçı əsərin bütünlüyünü təmin etmiş olur.

Bioqrafik nəsrdə müəllif öz xatirələrinə deyil, daha çox müasirlərinin qəhrəmanı haqqında fikirlərinə yer verməsi ilə təhkiyənin çoxsəsliliyinə nail olunur. Xəlil Rzanın Səməd Vurğun haqqında qeydlərində bu cür təsvirlərin yer alması müşahidə olunur.

Yaxın keçmişin əks olunması ilə özünün birbaşa şahidi olduğu (müasiri) hadisələrdən bəhs edən yazıçı, sadəcə təhkiyəçi olaraq baş verənləri təsvir etməklə kifayətlənmir. Hadisələrə müdaxilə edərək öz münasibətini bildirir. Mustafa Çəmənlinin "Fred Asif" əsərində yurd itkisi həm müəllif, həm də qəhrəman üçün eyni dərəcədə ağrılı olduğundan personaj, bir növ müəllifin fikirlərinin ifadəçisinə çevrilir. Beləliklə, bioqrafik əsərlərə xas müəllif və qəhrəman arasındakı məsafə aradan qalxmış olur.

Beləliklə, həqiqətin parçalanması, müəlliflərin gerçəkliyə şübhə ilə yanaşması ilə mətndə faktlar üstünlük təşkil edir, müəllif mövqeyi isə ikinci plana keçir. Gerçəkliyin müxtəlif baxış bucağından təsvir edilməsi nəticəsində süjet xəttinin xronoloji ardıcıllığı pozulur, xətti süjet assosiativ təsvirlə əvəzlənir. Müəllif obrazı deformasiyaya uğradıqda, haqqında bəhs olunan insanın özünə istinadı artır. Mətndə qəhrəmana aid materiallardan: əsərlərindən parçalar, məktubları, haqqında yazılan məqalələrdən geniş istifadə olunur. Müəllif-personaj münasibətləri mürəkkəbləşdikcə mətnin strukturu da mürəkkəbləşir.

Bədii və sənədli obrazları qarşılaşdıran L.Qinzburq bədii obrazın simvolik, ümumiləşdirici xüsusiyyət daşıdığını qeyd edir: "Memuarist isə buna əks olaraq, tamamilə başqa yola əl atır. O özünə uyğun olan hadisələri uydura bilməz. Hadisələr ona verilib, o, bu hadisələrə xas tarixi, fəlsəfi, psixoloji ümumiləşdirmələri əks etdirərək, onları bu ümumiləşdirmələrin işarələrinə çevirə bilməli, faktın məzmununu açmağı bacarmalıdır. O zaman fakt estetik əhəmiyyət kəsb edərək, ideyanın formasına, obrazına çevrilir. Roman və memuar müəllifi əks istiqamətlərdən yola çıxırlar..." [9, s.64].

Tədqiqatçılar çox zaman bədii və sənədli obrazın eyni məzmun daşıdığını, əsas fərqin estetik cilalanmada (отделка), işlənmədə olduğunu [10], bədii-sənədli obrazlarda estetik cilalanmanın zəif, psixoloji funksiyanın öndə olmasını qeyd edirlər. Bədii-sənədli nəsrdə müəlliflər obrazların bədii təsvirindən çəkinsələr də, hər bir obrazın "estetik məzmun kəsb etdiyi" qeyd olunur. Çünki bu obrazlarda "konkret insanlar sadəcə təsvir edilmir, həm də müəllifin onlara münasibəti əks olunur" [10].

Bədii-sənədli nəsrin obrazlar sistemi müəllifin yaradıcılıq kredosu ilə səsləşir. Məsələn, Xəlil Rza Ulutürk həmişə seçilən, fərqlənən, güclü insanları təsvir etməyə can atırsa (azadlıq mücahidlərini), Anarı yazıçı kimi mürəkkəb ömür yolu yaşamış şəxsiyyətlər cəlb edir (Ənvər Məmmədxanlının dramatik şəxsiyyəti, Nazim Hikmətin həyat hekayəsi və s).

Bədii-sənədli əsərlərin obrazlar sistemi əsərdə birbaşa iştirak edən "obraz-personajlar, süjet xəttinə daxil olmayan, detal qismində çıxış edərək keçmişin ümumi mənzərəsini dolğunlaşdıran obraz-təsvirlər, xatırlatma obrazlar (upominanie)" [11, s.59] olaraq təsnif edilir. Məsələn, Vidadi Babanlının "Gizlinlər" romanında bir çox müasirlərinin obrazları əsərin bərabərhüquqlu personajlarına çevrilirsə, Anarın "Sizsiz", "Həyatım ağrıyır", "Kərəm kimi" romanlarında obrazlar əsasən müəllif təhkiyəsində təqdim edilir. Sənədli təsvir prinsiplərinə sadiq qalan yazıçı baş verənləri nəql edir, "canlandırmır".

Surətlər həmçinin konkret, hər hansı hadisə və ya anlayış haqqında geniş məlumat verən ümumiləşdirilmiş obrazlar olaraq iki qismə bölünür (tarixi-siyasi, ədəbi mühitin təsviri). "Ümumiləşdirilmiş obrazlar müxtəlif elementlərin birliyindən yaranır: təsvir, müəllif mühakiməsi, qiymətləndirməsi; ...personajın xarakteri və fəaliyyəti; siyasi həyatın axarı" [11, s.61]. "Zaman konkret şəkildə tarixi hadisələrin, müəllif-təhkiyəçinin həyatının axarında, müəyyən dövrün məişət, mədəniyyət xüsusiyyətlərində, psixologiyasında ifadə olunur. Mühitin təsviri memuaristin taleyində, müasirləri ilə münasibətdə görünür. Memuarlarda gerçək coğrafi ərazilər, topoqrafik məkanlar, bir

zamanlar mövcud olmuş və ya hələ də mövcud olan binaların interyeri əks olunur" [11, s.61]. Sadalanan xüsusiyyətlər əsas personajın təsvirinin dolğunluğuna sirayət edir.

Obrazlar konstruktiv (insanın xasiyyətinin xarakterik detallarının tədricən, zamanla dolğunlaşması), reproduktiv (insan haqqında məlum faktlara əsaslanma) və xarakteristik (insanın əhatəli xarakteristikası) vasitələrlə canlandırılır [10]. Bədii portretlərdə (əsasən kiçik janrlarda) reproduktiv vasitələrdən daha çox istifadə olunur, konstruktiv və xarakteristik təsvir əsasən böyük janrlarda yer alır.

Əsərin obrazlar sistemi təsvir olunan həyat mərhələsi ilə əlaqəlidir. Uşaqlıq, yeniyetməlik dövrü ilə bağlı əsərlərdə əsasən ailə üzvləri, dostlar, qəhrəmanın yaxın çevrəsi təsvir edilir, gənclik illərindən başlayaraq qəhrəmanın ədəbi mühitdə, həyatda qarşılaşdığı hadisələrin təsviri ilə obrazlar sistemi genişlənir.

Əvvəllər olduğu kimi, bu gün də, bir çox əsərlərdə bioqrafik və ya avtobioqrafik qəhrəmanın digərlərindən üstünlüyü göstərilir (uşaqlıqdan müsbət keyfiyyətlərinə, zəkasına, cəsurluğuna görə seçilməsi), səhvlərinə, yanlışlıqlarına isə az yer verilir ki, bu da sünilik yaradaraq obrazın dolğunluğuna, təbiiliyinə zərər yetirir.

Bəzi əsərlərin təhkiyəsində xronoloji ardıcıllıq gözlənilir. Məsələn, Seyran Səxavətin "Qaçhaqaç" romanında əsərin ilk hissələrində avtobioqrafik nəsr xüsusiyyətlərinə uyğun olaraq yazıçının həyatı mərhələlər üzrə canlandırılır: uşaqlığı, məktəb illəri, kənddə təhsilini başa vurub Bakıya gəlməsi təsvir edilir. Sonrakı hissələr isə ayrı-ayrı insanlar haqqında portretlərə bölünür. Müəllifin dostları, iş yoldaşları, müasirlərinin ədəbi portretlərinin əks olduğu ayrıca fəsillərdə Yusif Səmədoğlunun, Nəsir İmanquliyevin, İlyas Əfəndiyevin, Vaqif Bəhmənlinin, Rauf Soltanın obrazları canlandırılmışdır.

Mistik təsvirin yer aldığı Rauf Soltan haqqında hissədə, insanın tənhalığı quruluşla, dövrlə əlaqələndirilmir, metafizik bir anlam kəsb edir. Mücərrəd kontekstin hakim olduğu bu hissə digər bölümlərdən fərqlənir.

Hər bir əsərdə hadisələr müəyyən məkanda, zaman kəsiyində baş verir. Dövrün təsviri birbaşa (publisistik fikirlər, mühakimələr) və ya dolayısı yolla (müəyyən hadisələrə münasibət, obrazlar) ifadə olunur.

Beləliklə, zaman keçdikcə sənədli üslubun belletrist üslubla yaxınlaşması nəticəsində bədii-sənədli nəsrin poetikasının mürəkkəbləşdiyi, müəllif və obrazlar sisteminin yeniləndiyi müşahidə olunur. Müəllif obrazının müəllif–təhkiyəçi, müəllif-personaj, müəllif-tədqiqatçı kimi müxtəlif formalarda təzahür etdiyinin şahidi oluruq.

**Nəticə.** Azərbaycan ədəbiyyatşünaslığında bədii-sənədli nəsrin az tədqiq olunması, mövzu ilə bağlı nəzəri aspektlərin öyrənilməsinin zəruriliyini şərtləndirir. Məqalədə, müəllif obrazının bədii-sənədli nəsrin janrlara görə təsnifatında əsas faktorlardan biri olduğu qeyd olunmuşdur. Avtobioqrafik və bioqrafik nəsrdə müəllif mövqeyinin təzahür xüsusiyyətləri təhlil edilmiş, bədii və sənədli obrazın oxşar və fərqli xüsusiyyətləri öyrənilmişdir. Zaman keçdikcə sənədli üslubun belletrist üslubla yaxınlaşması nəticəsində bədii-sənədli nəsrin poetikasının mürəkkəbləşdiyi, müəllif və obrazlar sisteminin yeniləndiyi göstərilmişdir.

**ƏDƏBİYYAT**


1. Квитченко О. Г., "Жанровые разновидности документального романа в советской прозе 70-х годов", Науч. докл. высш. шк. Филол. Науки, 1982 № 4.
2. Женетт Ж. Фикциональное и фактуальное повествование// Жерар Женетт. Работы по поэтике Фигуры: том 1-2 , М., Изд.–во Сабашниковых 1998. http://yanko.lib.ru/books/lit/jennet-figuru-1-2-1998-l.pdf
3. Симонова Т. Новые тенденции в современной художественной документалистике. Славянскія літаратуры у кантэксце сусветнай: да 900-годдзя Кірыла Тураўскага і 200-годдзя Тараса Шаўчэнкі.- Мінск : РИВШ, 2013 .- С.58-62. https://elib.grsu.by/doc/10806

4. Бахтин М.М. Автор и герой в эстетической деятельности проблема отношения автора к герою // Бахтин М.М. Эстетика словесного творчества. Издание 2-е. М.: Искусство, 1986.
5. Права и обязанности документалиста, "Вопросы литературы", 1971, № 6.
6. Колядич Т. Воспоминания писателей ХХ века: эволюция, проблематика, типология. М. 1999 https://www.rulit.me/books/vospominaniya-pisatelej-hh-veka-evolyuciya-problematika-tipologiya-read-79310-19.html
7. Тоне А. Проблемы жанровой эволюции художественно-документальной прозы 1970-1990-х гг. Автореферат диссертации на соискание кандидата филологических наук. Москва, 1999. http://cheloveknauka.com/problemy-zhanrovoy-evolyutsii-hudozhestvenno-dokumentalnoy-prozy-1970-1990-h-gg
8. Волкова С.А. Принципы и приемы выражения авторской позиции в художественно-документальной прозе // Вестник ЧГПУ им. И.Я. Яковлева. 2015, №1(85 ), с.26-31 file:///C:/Users/user/Downloads/26-31.pdf 2
9. Гинзбург Л. О документальной литературе и принципах построения характера // Вопросы литературы, 1970.
10. Боброва О.Б. Дневник К.И.Чуковского в историко-литературном контексте. АКД, Волгоград, 2007. http://cheloveknauka.com/dnevnik-k-i-chukovskogo-v-istoriko-literaturnom-kontekste
11. Симонова Т. Мемуарная проза русских писателей XX века: поэтика и типология жанра: Учеб. пособие / Т.Г.Симонова. – Гродно: ГрГУ, 2002. https://elib.grsu.by/katalog/64111.pdf